İSSN-0207-4710
2012-ci il

# GÖYƏRÇİN

2





Hekayə



Şeir



Nağıl

Nağıl vaxtı

# QOCA VƏ PƏLƏNG

*Monqol nağılı*

Qədim zamanlarda bir qoca və bir qarı var idi. Onlar inək və qoyun saxlayırdılar. Ancaq qurd onlara rahatlıq vermir, fürsət düşdükcə inək və qoyunları parçalayıb yeyirdi.

Bir gün qoca meşəyə odun gətirməyə gedəndə qarşısına bir pələng çıxdı. Pələng ona dedi:

-Ey qoca, gəl, görək kim güclüdür?

Qoca qorxsa da özünü sındırmadı. Dedi ki, sabah bu vaxt elə burdaca görüşərik.

Arvadının məsləhəti ilə qoca bir ağacın kökünü baltalayıb evə qayıtdı. Səhər onlar pələnglə görüşəndə kişi dedi:

-İndi mən çiynimi verib ağaclardan birini aşıracağam. Sonra bir ağacı da sən aşırarsan.

Pələng razılaşdı. Qoca axşamdan kəsdiyi ağaca çiynini toxunduran kimi ağac aşdı. Pələng nə qədər elədisə heç bir ağacı aşıra bilmədi. Pələng təəccüblə dedi:

-Qoca, sən nə yaman güclü imişsən? Ancaq bununla iş bitmir. Sabah yarışımız davam edəcək. Bu dəfə görək kim daşı sıxıb suyunu çıxaracaq.

Qoca evdən böyük bir pendir parçası götürdü. Onu daşların arasına qoyub pələngin yanına gəldi. Pələng iki daşı nə qədər sıxdısa, bir şey alınmadı. Qoca isə daşın arasındakı pendiri sıxan kimi onun suyu süzüldü.

Pələng heyrətə gəldi. Qocanı öz evinə qonaq çağırdı. Bir az yeyib içəndən sonra qaranlıq düşdü. Pələngin qılınc götürməsi qocanı şübhələndirdi. Qaranlıqda arı pətəyinin içinə girib yatdı.

Pələng qılıncla bir neçə dəfə vurub, elə bildi ki, qocanı öldürüb. Səhərəyaxın qoca pətəyin içindən çıxıb, onu öz yerinə qoydu. Qayıdıb əvvəlki yerində uzandı.

Pələng yuxudan duranda qocanı sağ-salamat görüb çaşdı. Qoca gülümsünərək dedi:

-Gecə kim isə daraqla mənim başımı darayırdı.

Pələng bir söz demədi. Çəlləyi qocaya verib dedi ki, sən get quyudan su gətir, onacan mən də yeməyi hazırlayım.

Boş çəlləyi güclə aparan qoca başa düşdü ki, onun içini su ilə doldursa, heç yerindən də tərpədə bilməyəcək. Elə buna görə də quyunun yanında arx qazmağa başladı.

Pələng nə qədər gözlədisə, qoca gəlib çıxmadı. O, çarəsiz qalıb quyunun yanına getdi. Gördü ki, qoca yer qazır. Təəccüblə soruşdu:

-Sən nə üçün belə eləyirsən?

-İstəyirəm ki, quyunun suyunun hamısını arxla sənin evinə aparam.

Pələng qorxdu və yalvardı ki, elə iş eləmə. Özü cəld çəlləyi doldurub yuvasına apardı.

Ayrılmaq vaxtı çatanda pələng kişiyə iri bir kisə qızıl bağışladı. Qoca gördü ki, kisəni apara bilməyəcək, ona görə pələngdən xahiş etdi ki, qızılları onun evinə aparsın.

Pələng belə də etdi. Bunu görən qocanın arvadı dedi:

-Ay kişi, nə yaxşı oldu, indi pələngi bişirib yeyərik.

Bunu eşidən pələng dəhşət içində meşəyə sarı götürüldü.

Yolda onun qarşısına qurd çıxdı. Pələng başına gələnləri danışanda qurd ona güldü. Dedi ki, gəl birlikdə gedib qocanın heyvanlarını parçalayaq.

Pələng qorxduğu üçün qurd bir kəndir tapıb onu özünə bağladı. Onlar qocanın evinə yaxınlaşanda kişi üzünü canavara tutub dedi:

-Ay sağ ol, qurd! Öz borcunu verməyə gəlmisən. Çoxdan idi ki, dilimizə pələng əti dəymirdi.

Bunu eşidən pələng qaçdı, canavarı da öz ardınca sürüyüb apardı.

O vaxtdan nə pələng, nə də qurd bir daha qocanın evinə yaxın düşmədilər.

*Tərcümə edib işləyəni: R.Y.Əliyev*

